# Bayrağımız eşidilən səsimiz, duyulan nəfəsimizdir

**Dövlətimizin müstəqilliyinin, azadlığının, suverenliyinin rəmzi olan Bayrağın təsis edilməsi birdən-birə baş verməyib. Bunun zəngin tarixçəsi var. Qısaca deyək ki, Bayrağımız indiki forma və mənasını alana qədər yüzilliklər keçib.**

Hələ qədim dövrlərdə insanları qələbədən-qələbəyə aparan bayraqlar onun şərəfi və qələbə rəmzi hesab olunub. Ona görə də bayraqlar müqəddəs hesab olunaraq daim döyüşçülərin başları üzərinə qaldırılıb. Hər orduda bayraqları qoruyan və əllərində aparan bayraqdarlar olurdu.



Xatırladaq ki, bayrağın yerə düşməsi məğlubiyyət hesab olunub. Əvvəllər şərti işarə kimi istifadə edilən bayraqlar zaman keçdikcə mənalandırılaraq tayfanın, dövlətin şərəfinə və rəmzinə çevrilib. Orta əsrlərdə böyük tayfaların, sonra xanlıqların hər birinin öz bayraqları var idi. Həmin bayraqlarda müqəddəs kəlamlar yazılır, təsvirlər verilirdi. Bakı, Qarabağ, Gəncə, Şəki, Şirvan, Naxçıvan xanlıqlarının bayraqları indi də saxlanmaqdadır.

Hazırda Vətənimizin hər bir guşəsində əzəmətlə dalğalanan Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan ay-ulduzlu Dövlət Bayrağımız 1918-ci il noyabrın 9-da hökumətin iclasında qəbul edilib. Lakin iki il sonra Azərbaycanı işğal edən bolşeviklər hakimiyyəti özü ilə qan rəngində bayraq gətirərək onu zorla qəbul etdirib. Məmməd Əmin Resulzadə o vaxt gələcəyə böyük inamla deyib: "Bir kərə yüksələn bayraq bir daha enməz!"

Dövlət müstəqilliyimiz bərpa olunandan sonra isə bayrağımız Bakının ən görkəmli yerində yenidən dalğalanıb. Azərbaycan Prezidentinin Sərəncamına əsasən noyabr ayının 9-u Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü elan olunub və o gün qeyri-iş günü kimi qəbul edilib. Bu gün biz bu bayrama alnıaçıq, üzüağ gedirik. Çünki bütün qələbələrimizi başımız üzərindəki müqəddəs bayrağımız altında qazanmışıq. Bu münasibətlə hamını təbrik edirik!

**Vəli İlyasov,**
**"İki sahil"**